# RATIONALITY IN TEACHER TRAINING

**Konul Mikayilova**

Senior researcher of the Institute of Education of the Republic of Azerbaijan
E-mail: konulmikayilova@rambler.ru
https://orcid.org/0000-0003-2817-5593

**Tavat Muradli**

Senior researcher of the Institute of Education of the Republic of Azerbaijan
E-mail: tavat.muradli2016@gmail.com
https://orcid.org/0000-0003-4995-1176

**Abstract.** The article examines gaps in educational training, also professional requirements, based on the results of international surveys such as TALIS (Teaching and Learning International Survey), BERA-RSA (The British Educational Research Association and The Royal Society for the Encouragement of the Arts), to improve the professionalism of teachers. On the other hand, the requirements of the document «Concept and Strategy of Continuing Pedagogical Education and Teacher Training in the Republic of Azerbaijan» are reflected. This article contains suggestions on the role of pedagogical science in teacher training and areas for improvement.

**Keywords:** staff training, requirements, standards, content line, profess-sionalism, educational standards.

**To cite this article:** Mikayilova K, Muradli T. (2022). Rationality in teacher training. *Journal of Preschool and Primary Education*, Vol. 240, Issue III, pp. 61-70.
**Article history:** received – 17.08.2022; accepted – 23.09.2022.

# MÜƏLLİM HAZIRLIĞINDA RASİONALLIQ

**Könül Mikayılova**

Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi işçisi
E-mail: konulmikayilova@rambler.ru
https://orcid.org/0000-0003-2817-5593

**Tavat Muradlı**

Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi işçisi
E-mail: tavat.muradli2016@gmail.com
https://orcid.org/0000-0003-4995-1176

**Annotasiya.** Məqalədə müəllim peşəkarlığının artırılması istiqamətində pedaqoji yanaşmalar öz əksini tapmışdır. Eləcə də TALIS (Tədris və Öyrənmə üzrə Beynəlxalq Sorğu), BERA-RSA – (Britaniya Təhsil Araşdırmaları Assosiasiyası və Kral Cəmiyyətində İncəsənət Təşviqi) kimi beynəlxalq təhsil şirkətləri tərəfindən aparılan anket sorğularının nəticələri əsasında müəllim kadrlarının hazırlığında meydana çıxan boşluqlar, kadr hazırlığına verilən tələblər və müəllimlik peşəsinin tələbatları qeyd olunmuşdur. Həmçinin "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" sənədində verilən tələblər, pedaqogika elminin müəllim hazırlığında rolu və təkmilləşdirilməsi istiqamətində təkliflər də məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** kadr hazırlığı, tələblər, standartlar, məzmun xətti, peşəkarlıq, təhsil standartları.

**Məqaləyə istinad:** Mikayılova K., Muradlı T. (2022). Müəllim hazırlığında rasionallıq. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 3 (240), səh. 61-70.
**Məqalə tarixçəsi:** göndərilib – 17.08.2022; qəbul edilib – 23.09.2022.

## Giriş / Introduction

Ümummilli lider Heydər Əliyev ali məktəb işçilərinin respublika müşavirəsindəki nitqində demişdir: "…Biz istəyirik ki, hər bir ali məktəb müəllimi öz sahəsində səriştəli olsun, geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün bütün başqa zəruri keyfiyyətlərə malik olsun. Bunun üçün gərək hər bir ali məktəb müəllimi elmi biliklərdən əlavə, düzgün nitq, dil qabiliyyətinə, natiqlik məharətinə, bütün başqa pedaqoji keyfiyyətlərə və vərdişlərə yiyələnsin ki, bütün bunlar üst-üstə ona həqiqətən yaxşı tərbiyəçi olmaq imkanı versin" [Əliyev H., 1980 ].

Müəllimlik peşəsi bütün dövrlərdə yüksək qiymətləndirilmişdir. Şahlar, sultanlar belə müəllimlərə xüsusi hörmət göstərmiş və onlar xalq arasında hər zaman sevilmişlər. Bu gün də təhsil və tərbiyə prosesində müəllimin pedaqoji fəaliyyəti mühüm əhəmiyyət kəsb edir və onun peşə hazırlığı, savadı, mənəviyyatı yüksək dəyərləndirilir.

Müəllim, yeri gəldikdə həkim, yeri gəldikdə ədalətli hakim, psixoloq, siyasətçi və s. kimi ixtisasların vəhdətini yaradır. O, 45 dəqiqəlik zaman çərçivəsində sinif kollektivini idarə edir, şagirdlərin bilik və bacarıqlarını möhkəmləndirir, yeni biliklərin ötürülməsini, fənlərarası və fəndaxili inteqrasiyanı təmin edir, nəzəri biliklərlə həyati bacarıqlar arasında vəhdət yaradır. Bütün bunlar olduqca məsuliyyətli bir vəzifədir. Bir çox peşələrdə zaman məhdudiyyəti yoxdur, məsələn, yanğınsöndürənə demək olmaz ki, bu yanğının söndürülməsinə ayrılan vaxt 45 dəqiqədir, yaxud həkimə demək olmaz ki, hər hansı bir əməliyyatı 45 dəqiqə ərzində yerinə yetirməlisən və s. Hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla onların ailə və sosial qayğılarına diqqət ayırmaq müəllimlik peşəsinin mürəkkəbliyini, çətinliyini və özəlliyini bir daha vurğulamağa əsas verir.

Belə məsuliyyətli və şərəfli peşəyə yiyələnmək, doğrudan da, yüksək hazırlıq tələb edir. Ona görə də bu sahədə işləyən mütəxəssislər peşə məsuliyyətini tam anlamı ilə dərk etməli və çətinliklərin öhdəsindən gələ biləcəklərinə əmin olmalıdırlar. Kadr hazırlığı prosesində də təhsilalan və təhsilverənlər arasında bu kimi amillər nəzərə alınmalıdır. Müəllimlərin kadr hazırlığında peşə bacarıqları əsaslı şəkildə formalaşmalıdır. Tələbələr müəllimlik fəaliyyətinə başlamazdan əvvəl bu peşənin məsuliyyətini tam şəkildə mənimsəməli, psixoloji cəhətdən buna hazır olmalıdırlar. Müəllimin fərdi xüsusiyyətləri arasında onun müşahidəçilik qabiliyyəti, etik-ünsiyyət və davranış bacarıqları olduqca önəmli faktorlardan biridir. Müşahidəçilik qabiliyyəti təlim-tərbiyə prosesinin səmərəliliyini, etik-ünsiyyət və davranış bacarıqları isə valideyn, pedaqoji kollektiv, təhsil menecerləri və ictimaiyyətlə əlaqələrin qurulması mexanizmlərinin təminatçısıdır.

## Əsas hissə / Main part

**Müəllimin fəaliyyətinə verilən tələblər.**

Təkmilləşən və iqtisadi cəhətdən rəqabətədavamlı təhsil beynəlxalq məkanda inkişaf etdikcə, təhsilə olan milli və beynəlxalq tələblər də çoxalır. Artıq təhsil müəssisələrindən yüksək səviyyəli təhsil nəticələri tələb olunur. Davamlı və inkişafyönümlü təhsil islahatları müəllim fəaliyyətini, müəllim peşəkarlığının rasionallığını daim diqqət mərkəzində saxlamağı, yeni yanaşmaların tətbiqini tələb edir. Təhsil tarixinə nəzər saldıqda qeyd etmək olar ki, bütün dövrlərdə müəllimlərin rasional inkişafının təkmilləşdirilməsi istiqamətində müxtəlif fəlsəfi, sosioloji və psixoloji tədqiqatlar aparılmışdır.

Qeyd edək ki, Tədris və Öyrənmə üzrə Beynəlxalq Sorğu (TALIS) təhsil şirkəti hər beş ildən bir müəllimlik peşəsinin göstəricilərini təqdim edir. "2018-ci ildə 48 ölkədə, 15 000 məktəbdə təxminən 260 000 müəllimi əhatə edən TALIS-ın keçirdiyi sorğunun məqsədi müəllimləri və məktəbləri innovasiyalara ilhamlandırmaq, ən yaxşı təcrübələri müəyyənləşdirib paylaşmaq və yüksək idarəetməni təmin etməkdir" [Professionalnıye kompetentsii uchiteley nachalnıx shkol v kontekste yevropeyskix inteqratsionnıx protsessov]. TALIS təhsil şirkətinin apardığı anket sorğusu müəllimlərin peşə fəaliyyətinə dair aşağıdakı məlumatları təhlil etmişdir:

- kurslar/seminarlar;
- təhsil konfransları;
- ixtisas proqramları (məsələn, dərəcə proqramı);
- digər məktəblərə müşahidə səfərləri;
- peşəkar inkişaf üçün xüsusi olaraq yaradılmış müəllimlər birliyində iştirak;
- peşəkar maraq doğuran mövzular üzrə fərdi və ya kollektiv formada aparılan tədqiqatlar;
- mentorluq və kouçinq (rəhbərlik).

Tədqiqat və müəllimlərin təhsili: "BERA–RSA-nın keçirdiyi sorğu beynəlxalq miqyasda müəllimlərin statusundakı qeyri-müəyyənliyi və ziddiyyəti, müəllim peşəkarlığının yüksəldilməsi mexanizmlərini işləyib hazırlayır" [İsayev E., 2019]. BERA–RSA tərəfindən keçirilən sorğu əsasında müəllim peşəkarlığına töhfələr verən dörd tədqiqat forması təqdim olunmuşdur:

– Müəllim təhsil proqramlarının məzmunu haqqında məlumatlandırılmalı, akademik fənlərə dair bilik və bacarıqlar tədqiqat prosesində əldə edilməlidir.
– Tədqiqat mövzuları təhsil proqramlarının strukturuna əsasən müəyyənləşdirilməlidir.

– Pedaqoji heyət təcrübəyönümlü tədqiqatlara istiqamətləndirilməlidir.
– Pedaqoji heyətin apardığı tədqiqatlar mövzuya olan maraqlar çərçivəsində olmalıdır. Aparılan tədqiqatlarda məqsəd müəllim peşəsinin güclü tərəfləri haqqında müsbət istiqamət formalaşdırmaqdır. Gündəlik peşə fəaliyyətini yerinə yetirən müəllim yüksək keyfiyyətli tədris prosesini təmin etməklə şagirdlərdə bilik və bacarıqların vəhdətini formalaşdırmalı və şagird məmnunluğunu təmin etməlidir. Bunun üçün pedaqoji yönümlü təhsil müəssisələrində ilkin peşə səriştəliliyi formalaşdırılmalıdır ki, sonradan təhsil prosesində onlar peşə səriştəliliyinin inkişaf dinamikası ilə uyğunlaşa bilsinlər. Təhsil haqqında müvafiq normativ-hüquqi sənədlərdə müəllimlərin kadr hazırlığında peşə ixtisaslarının artırılması və müxtəlif səriştələrə yiyələnmələri, eləcə də ömür boyu təhsilin köməyi ilə biliklərin yenilənməsi, nəzəriyyə ilə təhsil təcrübəsi arasında uyğunluğun yaradılması öz əksini tapmışdır.

"Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası"nda altı strateji fəaliyyət istiqaməti müəyyən edilmişdir:

– müəllim hazırlığı proqramlarının keyfiyyəti;
– müəllimlərin hazırlığı və təhsil sisteminin müəllimlərlə təmin edilməsi;
– fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı müəssisələrinin təşkilati strukturu və funksiyaları;
– fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığında monitorinq və keyfiyyətin təmin olunması;
– müəllimlərin hazırlanmasının və təkmilləşdirilməsinin həyata keçirilməsi modelləri;
– fasiləsiz pedaqoji təhsil, müəllim hazırlığı sisteminin idarə olunması və menecer hazırlığı [Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası].

Qeyd olunan konsepsiya və strategiya sənədinə pedaqoji fəaliyyətin özünüidarə, özünüqiymətləndirmə, emosionallıq, kommunikativ, didaktik qabiliyyətlər və s.; intellektual fəaliyyət (düşüncə, yaddaş, qavrama, təsvir, diqqət), davranış, ünsiyyət, pedaqoji mədəniyyət və s.; inteqrasiya proseslərinə isə dünya təhsil məkanının inkişaf tendensiyası daxil edilmişdir.

**Müəllim kadrlarının hazırlığı üzrə məzmun xəttinin təkmilləşdirilməsi.** Nəzərə almaq lazımdır ki, hazırda, digər fəaliyyət sahələrində olduğu kimi, təhsil sahəsində də peşədaxili diferensiallaşma mövcuddur. Bu, təbii əmək bölgüsü prosesidir ki, burada səmərəlilik və mükəmməl fəaliyyət nəzərdə tutulur. Sosial-iqtisadi şəraitdə və elmi-texnoloji tərəqqinin inkişafı ilə bağlı baş verən yeniliklər müəllimlik fəaliyyətinin bir sıra elmlərlə sıx əlaqədə, yaxud vəhdət halında inkişaf etməli olduğunu tələb edir. Burada:

- digər elmi anlayışlar, ideyalar, kateqoriyalar tədqiqat predmeti olaraq tədqiq edilməli;
- digər elmlərin də tədqiqat metodlarından istifadə edilməli;
- digər elmlərin inkişaf tendensiyasında paralellik yaradılmalı, pedaqoji tədqiqatların, pedaqoji biliklərin diferensiallaşdırılması prosesi təmin edilməlidir.

Buradan belə qənaətə gəlirik ki, pedaqoji kadr hazırlığında səriştəli müəllim yetişdirmək üçün müasir cəmiyyətin tələblərinə cavab verə bilən məzmun xətti təqdim edilməlidir. Həmin məzmun xətti zəngin ixtisas bilikləri və metodik səriştəsi ilə özünü təqdim edə bilən, şəxsiyyətlərarası münasibətlər və ətraf aləm haqqında inteqrasiya olunmuş biliklər sisteminə malik, səriştəli, peşəkar pedaqoji kadrların hazırlığını əhatə edir. Hansı ki, bu kadr səriştəlilik, biliklər, dəyərlər və xüsusi bacarıqlar əsasında özünü təqdim etsin, peşə fəaliyyətinin məna və məqsədini tam mənası ilə qəbul etmiş olsun. Burada xüsusi bacarıqlar dedikdə, şəxsiyyətlərarası münasibətlər və ətraf aləm haqqında inteqrasiya olunmuş biliklər sistemi nəzərdə tutulur. Bu baxımdan müəllim kadrlarının hazırlığında pedaqogika elminin məzmun xətti müasir dövrün tələbləri daxilində bir qədər təkmilləşdirilməlidir. Pedaqogika, bir elm sahəsi kimi, müəllimlərin peşəkar dünyagörüşünün, dəyərlər sisteminin, özünəhörmət hissinin formalaşmasında bir vasitədir və müəllimin peşəkarlaşması və təkmilləşdirilməsi istiqamətində əsaslı rol oynayır.

Pedaqogika elmi müəllimlərin aşağıdakı bilik və bacarıqlara yiyələnmələrini təmin edir:

- pedaqogika elminin tədqiqat obyektləri və pedaqoji sistemdə müəllimin rolu;
- müəllim peşəsinin obyektiv və subyektiv cəhətləri;
- müəllim-şagird münasibətlərində mövcud olan problemlərin təhlili;
- peşəkar inkişaf və özünüinkişaf yolları;
- planlaşdırma bacarığı;
- praktik problemləri təhlil etmək bacarığı;
- müəllimin özünüqiymətləndirmə bacarığı;
- müəllimlərdə şagirdlər haqqında ilkin təsəvvürlərin formalaşması.

Pedaqogika fənni təhsilalanlara, nəzəri biliklərlə yanaşı, pedaqoji fəaliyyətin səmərəliliyini artıran praktik biliklərin verilməsini də daha geniş şəkildə təmin etməlidir. Pedaqoji fəaliyyətin səmərəliliyini artıran biliklər bazası aşağıdakı cədvəldə öz əksini tapmışdır (cədvəl 1).

**Cədvəl 1**

| № | Pedaqoji fəaliyyətin səmərəliliyini artıran biliklər bazası |
|---|---|
| 1 | Müəllimlik peşəsi və ya missiyası (beynəlxalq standartlar əsasında yenilənməli) |
| 2 | Pedaqoji fəaliyyətin trayektoriyası:<br>şəxsiyyət yanaşması (xüsusiyyətləri);<br>funksional yanaşma (iş fəaliyyəti). |
| 3 | Müəllimlərin peşə funksiyalarının çevikliyi (müasir tələblər əsasında) |
| 4 | Peşəkar fəaliyyətdə qeyri-müəyyənlik |
| 5 | Müəllim–şagird əməkdaşlığı (multikultural əsaslarda) |
| 6 | Müəllim əməyinin səmərəliliyi (beynəlxalq standartlar əsasında) |
| 7 | Nəzəriyyənin şəxsi təcrübə ilə vəhdəti |
| 8 | Praqmatik kvalifikasiyalar |
| 9 | Müəllim şəxsiyyəti və onun peşəkar inkişaf dinamikası |
| 10 | Tədqiqatçılıq və əqli mülkiyyət mədəniyyətinin aşılanması |
| 11 | Müasir dərsliklərlə və metodik vəsaitlərlə işləmə bacarıqlarının formalaşdırılması |
| 12 | Məktəbdə idarəçilik modelləri haqqında ilkin təsəvvürlər |
| 13 | Təhsil platformalarına dair geniş məlumatlar |
| 14 | Pedaqoji–texnoloji biliklər bazası |

Bu biliklər sistemi beynəlxalq şəbəkədə müəllimlik fəaliyyətinə verilən aşağıdakı bacarıq və tələblər, eləcə də TALIS və BERA–RSA sorğu nəticələri əsasında müəyyənləşdirilmişdir.

"Nümunəvi müəllim belə olmalıdır:

- şagirdləri ruhlandıran, həvəsləndirən və onları məqsədlərə yönləndirən;
- şagirdlər üçün qarşılıqlı hörmətə əsaslanan təhlükəsiz və stimullaşdırıcı mühit yaradan;
- qabiliyyətli və qabiliyyətə meyilli şagirdlərin imkanlarını genişləndirən məqsədlər qoyan;
- şagirdlərdən gözlənilən müsbət münasibətləri, dəyərləri və davranışları ardıcıl şəkildə nümayiş etdirən;
- şagirdləri tərəqqiyə və müsbət nəticələrə təşviq edən;
- şagirdlərin nailiyyətləri, irəliləyişləri və nəticələri üçün cavabdeh olan;
- şagirdlərin imkanlarından, əvvəlki bilik səviyyələrindən xəbərdar olan, onların əldə etdikləri irəliləyişlərin və yaranan problemlərin üzərində düşünərək tədrisi planlaşdıran;

- şagirdlərin necə öyrəndikləri və bunun tədrisə necə təsir etdiyi barədə bilik və anlayış nümayiş etdirən;
- şagirdləri təhsilə məsuliyyətlə və vicdanla yanaşmağa həvəsləndirən;
- fənn və kurikulum biliklərini nümayiş etdirən;
- müvafiq fənlər və kurikulum sahələri üzrə hərtərəfli biliyə sahib olan;
- şagirdlərin mövzuya marağını gücləndirən, möhkəmləndirən və anlaşılmazlıqları aradan qaldıran;
- fənn və kurikulum sahələrində inkişaf anlayışını nümayiş etdirən;
- ixtisas fənnindən asılı olmayaraq, yüksək savadlılıq, ifadəlilik və standartlar üzrə məsuliyyət daşıyan;
- oxumağı öyrədərkən sistematiklik və ardıcıllığı nəzərə alan" [Əsədova İ., 2021].

Qeyd olunan məsələlər müəllimlərin kadr hazırlığı üzrə məzmun xəttinin yeniləşdirilməsi istiqamətində aparılacaq işlərdə öz əksini tapır.

## Nəticə / Conclusion

TALIS, BERA–RSA beynəlxalq təhsil şirkətlərinin keçirdiyi sorgunun nəticələri və aparılan tədqiqatlara əsaslanaraq belə qənaətə gəlmək olar ki, pedaqoji kadr hazırlığı problemlərinin istiqamətlərindən biri də müəllim hazırlığı üzrə məzmun xəttinin təkmilləşdirilməsidir. Müəllimlərin peşəkar səriştəliliyinin artırılması, müasir təhsilin tələbləri istiqamətində praktik biliklərin verilməsinin təmin olunması məqsədilə müəllim hazırlığının məzmun xəttinin modernləşdirilməsi, günün tələblərinə uyğunlaşdırılması təklif olunur. Müəllimlər pedaqoji fəaliyyətə ixtisas bilikləri ilə yanaşı, həm də beynəlxalq və ölkə miqyaslı, qabaqcıl təcrübələrə yiyələnərək başlamalıdırlar. Bu baxımdan, kadr hazırlığı prosesində pedaqoji fəaliyyətin səmərəliliyini artıran biliklər bazası formalaşdırılmalıdır ki, bu da pedaqogika fənninin məzmun xəttində edilən yeniliklər nəticəsində formalaşacaq. Yeni biliklər sistemi təhsilalanlara özünütəhsil və özünüinkişaf prosesinin imkan və yollarını aşılamalıdır.

**Məqalənin aktuallığı**. Məqalədə qeyd olunur ki, pedaqoji kadr hazırlığında beynəlxalq standartların və tələblərin müasir dövrün tələblərindən irəli gələrək əsaslandırılması məsələsi bu gün aktual problemdir. Müasir texnologiyaların köməyi ilə təhsilalanlar pedaqoji fəaliyyət prosesində peşəkar inkişafı təmin etməli, yaradıcı fəaliyyət imkanlarının sirlərinə yiyələnməlidirlər. Onlar beynəlxalq standartlar çərçivəsində yeniliklərə açıq olmalı və inkişaf tendensiyalarını izləməyi bacarmalıdırlar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə beynəlxalq standartlar əsasında müəllim kadrlarının hazırlanmasında pedaqoji fəaliyyətin səmərəliliyini artıran biliklər

sistemi təklif olunur. Həmçinin məqalədə müəllimlərin kadr hazırlığı üzrə məzmun xəttinin yeniləşdirilməsi istiqamətində aparılacaq işlər öz əksini tapmışdır. Pedaqoji kadrların təkmilləşdirilməsi istiqamətində, müəllim hazırlığı prosesində müəllimin şəxsiyyəti, istedadı, nüfuzu, peşə etikası, peşə bacarıqlarının formalaşması və müəllimin sosial funksiyasına dair araşdırmalar aparılmalı və müəllim hazırlığının təkmilləşdirilməsi istiqamətində müəyyən addımlar atılmalıdır.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, burada pedaqoji fəaliyyətin səmərəliliyini artıran biliklər sistemindən söhbət gedir. Pedaqoji sistemdə müəllimin rolu, peşənin obyektiv və subyektiv cəhətləri, peşəkar inkişaf və özünüinkişaf yolları, planlaşdırma bacarığı, praktik problemləri həlli, özünüqiymətləndirmə bacarığı və s. məsələlər müəllim kadrlarının hazırlığında əsas amil kimi məqalədə öz əksini tapmışdır. Bu biliklər sistemi təhsil sahəsində çalışan mütəxəssislər üçün baza rolunu oynayacaq.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası. URL: http://www.e-qanun.az/framework/13540
2. Cəfərova İ. (2015). Kadr hazırlığında yeni təlim üsulları və texnologiyalarının tətbiqi. Bakı, “Konservatoriya”, № 4, s. 1.
3. Əliyev H. (1980). Ali məktəb işçilərinin respublika müşavirəsində nitq.
4. Əsədova İ. (2021). Müəllimlərin peşəkar inkişafında pedaqoji-metodik işin təşkili. “Müasir təhsilin inkişaf strategiyaları: ugurlar və çağırışlar”. Naxçıvan, 26–27 noyabr, s. 46-49
5. İsayev E. (2019). Müasir mərhələdə müəllim hazırlığı və qarşıda duran vəzifələr. Naxçıvan, “Naxçıvan”, 05 oktyabr, s. 1.
6. Professional'niye kompetentsii uchiteley nachalnix shkol v kontekste yevropeyskix integratsionnix protsessov. Na primere sistemi obrazovaniya Respubliki Pol'sha. http://www.dslib.net/obw-pedagogika/professionalnye-kompetencii-uchitelej-nachalnyh-shkol-v-kontekste-evropejskih.html
7. Learning Standards, Teaching Standards and Standards for School Principals. URL: https://www.oecdilibrary.org/docserver/5k3tsjqtp90ven.pdf?expires=1642599242&id=id&accname=guest&checksum=E66EA79A48A86CA1F9E91FA9A0CDB8BA

8. Research and the Teaching Profession Building the capacity for a self-improving education system. URL: https://www.thersa.org/globalassets/pdfs/bera-rsa-research-teaching-profes sion-full-report-for-web-2.pdf
9. TALIS Results: Teachers and School Leaders as Lifelong Learners and Valued Professionals. URL: https://www.oecd.org/education/talis/.